**NAXÇIVAN MUXTAR RESPUBLİKASININ**
**NAZİRLƏR KABİNETİ**

# Q Ə R A R

**Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2009-cu il 13 oktyabr tarixli 74 nömrəli qərarı ilə təsdiq edilmiş «Avtomobil nəqliyyatı ilə sərnişin və baqac daşınması Qaydaları»na əlavə və dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 17 sentyabr tarixli 141 nömrəli qərarı ilə təsdiq edilmiş «Avtomobil nəqliyyatı ilə sərnişin və baqac daşınması Qaydaları»na əlavə və dəyişiklik edilməsi barədə» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 12 noyabr tarixli 212 nömrəli qərarının icrasını təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti **qərara alır**:

1. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2009-cu il 13 oktyabr tarixli 74 nömrəli qərarı ilə təsdiq edilmiş «Avtomobil nəqliyyatı ilə sərnişin və baqac daşınması Qaydaları»na aşağıdakı əlavə və dəyişiklik edilsin:

1.1. 3.1-ci bənddə «yaşı 21-dən» sözlərindən sonra «DE» kateqoriyası üzrə nəqliyyat vasitələrini idarə etmək hüququnu təsdiq edən sürücülük vəsiqəsi olan, yaşı 24-dən» sözləri əlavə edilsin;

1.2. 3.2-ci bənddə «B» kateqoriyası» sözləri «B» və ya «BE» kateqoriyaları» sözləri ilə əvəz edilsin.

2. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**Naxçıvan Muxtar Respublikasının**
**Baş naziri**: **Ə.Baxşıyev**

20 noyabr 2010-cu il

№ 114